# Ulu öndərin doğum günü ehtiramla qeyd olundu









***Azərbaycan xalqı dünyada XX əsrin böyük siyasi xadimlərindən biri kimi tanınan və şəxsiyyətinə yüksək ehtiram bəslənən Heydər Əliyevin doğum gününü hər il təntənə ilə qeyd edir.***

***Bu təntənəyə qəbələlilər də ürəkdən qoşulur, dahi şəxsiyyətə öz ehtiramlarını bildirirlər.***

Mayın 10-da rayon sakinlərinin böyük izdihamı səhər tezdən Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünü qeyd etmək üçün ulu öndərin Qəbələ şəhərində ucaldılan abidəsinin önünə toplaşmışdılar. Bayramsayağı bəzədilmiş parka toplaşan insanların hamısının çöhrəsində xalqımızın ümummilli lideri və böyük oğlu Heydər Əliyevlə bağlı qürur hissləri duyulurdu. Uzaqgörən siyasi xadim bu etimadı, ehtiramı və rəğbəti sağlığında ikən qazanmışdı.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi illərdə 2 dəfə Qəbələdə olmuş, onun hər gəlişi rayonumuzun sürətli inkişaf yoluna çıxmasına təkan vermişdir.

Qəbələnin tarixi şöhrətinin özünə qaytarılması, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilməsi, rayonun turizm potensialının üzə çıxarılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Vaxtilə respublikanın özündə belə yaxşı tanınmayan rayonumuz artıq beynəlxalq turizm təşkilatlarının böyük həvəslə üz tutduğu məkanlardan birinə çevrilmişdir.

İndi Qəbələ yüksək səviyyəli beynəlxalq və regional konfranslara, idman yarışlarına, musiqi festivallarına, rəsm sərgilərinə ev sahibliyi edir. Belə yüksək tədbirlərin keçirilməsi üçün artıq Qəbələdə müafiq infrastruktur yaradılmışdır və bütün bunlar Heydər Əliyev siyasətinin bəhrələridir.

İnsan axını ilə dolmuş parkda saat 10-da ulu öndərin abidəsinin ziyarəti başlandı. Əvvəlcə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev abidənin önünə gül dəctəsi düzdü və ümummilli liderin əziz xatirəsinə öz dərin ehtiramını bildirdi. Sonra ayrı-ayrı idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri abidəni ziyarət etdilər.

Abidə önünə gələn yaşlı nəslin nümayəndələrinin, qadınların, gənclərin və yeniyetmələrin ardıarası kəsilmirdi. Ulu öndərin doğum günü münasibətilə parkın mərkəzi meydanında möhtəşəm kitab bayramı da təşkil olunmuşdu. Tədbir iştirakçıları böyük maraqla yeni nəşrlər və Hedər Əliyevin siyasi fəaliyyətinə həsr olunmuş kitablarla tanış oldular. Məktəblilər ümumilli lideri tərənnüm edən şeirlər oxudular.

Sonra şəhərin müxtəlif ərazilərində Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ağacəkmə kampaniyası keçirildi. Təntənəli tədbir günün ikinci yarısınadək davam etdi.

Qəbələlilər bu əlamətdar gündə, bu bayram tədbirində fəal iştirakları ilə bir daha sübut etdilər ki, bundan sonra da ümummilli lider Heydər Əliyev siyasətinin həyata keçirilməsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizin, o cümlədən Qəbələnin inkişafı naminə qarşıya qoyduğu bütün vəzifənin yerinə yetirilməsində yaxından iştirak edəcəklər.

**«Qəbələ».**
**İlkin VƏLİZADƏ.**

# "Tour d'Azerbaidjan-2017" beynəlxalq veloyürüşünün üçüncü mərhələsi Qəbələ şəhərində başa çatmışdır

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilən "Tour d'Azerbaidjan-2017" beynəlxalq velosiped yarışının mayın 5-də üçüncü mərhələsi keçirilmişdir.

18 ölkənin 22 komandasının mübarizə apardığı yarışın 177 kilometrlik Qəbələ-Oğuz-Şəki-Oğuz-Qəbələ marşrutundan sonra Azərbaycanın elit yığması və "Synergy Baku" kontinental klubunun üzvü Kiril Pozdnyakov liderliyi qoruyub.






Mərhələ qalibi isə "Synergy Baku"nun keçmiş üzvü, hazırda Avstriyanın "Amplatz BMC" komandasının şərəfini qoruyan sloveniyalı Matey Müqerli olub. O, məsafəni 4 saat 20 dəqiqə 32 saniyəyə başa vurub. Matey Müqerli ötən il "Synergy Baku"nun heyətində də bu mərhələnin qalibi olmuşdu. İsrailin "İsrael Cycling Academy" komandasının üzvü Mikel Raim və Ukraynanın "Kolss" komandasının təmsilçisi Vitali Buts qaliblə eyni vaxt göstəricinə imza atmaqla finiş xəttini müvafiq olaraq 2-3-cü keçiblər.

"Synergy Baku"nun üzvlərindən Kiril Pozdnyakov və Yosip Rumaç finişi ümumi pelotonda keçməklə fotofinişə əsasən 14 və 15-ci olublar. Məhz bu nəticə Kiril Pozdnyakova ümumi təsnifatda liderliyi qorumağa şərait yaradıb və o mavi rəngli "Synergy" köynəyini özündə saxlayıb. Velosipedçimiz ən yaxın izləyicisi, Ukraynanın "Kolss" komandasının üzvü Aleksandr Polivodanı 39 saniyə qabaqlayıb.

Aralıq sprintlərində hamıdan çox xal toplayan "İsrael Cycling Academy" komandasının üzvü Mikel Raim ən yaxşı sprinter üçün nəzərdə tutulan yaşıl rəngli "SOCAR" köynəyini özünə qaytarıb. Ən yaxşı dağ velosipedçisinə verilən qırmızı rəngli "AZAL" köynəyi Ukraynanın "Kolss" komandasının üzvü Vitaliy Butsda qalıb. Almaniyanın "Team Sauerland NRW p/b Henley & Partners" klubunun üzvü Feliks İntra isə yenidən ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli "ATAHOLDİNG" köynəyi ilə mükafatlandırılıb.

Velosipedçiləri Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov və Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov təltif edib.

Mayın 6-da velosipedçilər yarışın ən çətin dağ mərhələsində mübarizə aparmaq üçün Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürməklə İsmayıllı-Ağsu-Şamaxı-Pirqulu istiqamətində yola salınmışlar.

***«Qəbələ».***
**İlkin VƏLİZADƏ.**